

*Qurban Bayramov, tənqidçi-ədəbiyyatşünas.*

# Ənvər Əhməd poeziyasının siqləti...

**(İxtisarla)**

*"Ölüm sevinməsin qoy! Ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər…"*

**Səməd Vurğun**

Ənvər Əhməd böyük və zəngin yaradıcılıq potensialına malik, kamillik dövrünü keçmiş, müdriklik məqamına yiyələnmiş şairimizdir. Onun şair şəxsiyyəti və obrazı müasir Azərbaycan ədəbiyyatı tarixində qərarlaşmışdır. Lakin bu məqama yetmək üçün yuxusuz yaradıcılıq ğecələri, ağır, əzablı zəhmətli günlər, əlbətttə ki, istedad və ən ümdəsi isə xalqa, vətənə, elə-obaya tükənməz bağlılıq və məhəbbət tələb edir ki, bunların hamısı, şair, dramaturq, publisist, ədəbiyyatşünas-alim Ənvər Əhməd şəxsiyyətində cəmləşibdir. Və əslində Ənvər Əhmədin müstəqil dövlət kimi öz müstəqil ədəbi aləmi, sərhədləri məlum-məşhur öz şeir dünyası, öz poeziya məkanı var... Həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil, müstəqil və azad, daha milli və xəlqi bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyl göstərməyin özü onun yaradıcılığını şərtləndirən mühüm amillərdəndir.

Ənvər Əhməd (Əhmədov Ənvər Misir oğlu) - şair, dramaturq, publisist, tərcüməçi, ədəbiyyatşünas, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1982), Azərbaycan Milli Yaradıcılıq Akademiyasının doktoru (1992), "Qızıl qələm" mükafatı laureatı, Beynəlxalq dərəcəli fəlsəfə və filologiya doktoru, professor (2000), Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü (2001). 1943-cü il avqustun 8-də, İkinci Cahan savaşının şıdırğı çağlarında Azərbaycanın Ağcabədi bölgəsinin Kəbirli mahalının Salmanbəyli kəndinin Kəlbəcərdə yerləşən Sarıyer yaylağında doğulmuşdur. Ağcabədinin 5 saylı şəhər orta məktəbində təhsil alandan sonra Bakı statistika texnikumunu bitirmiş(1961), Ağcabədi rayonundakı Salmanbəyli kəndində mühasib köməkçisi işləmişdir(1961-1962). "Dağ və mən" adlı ilk şeri 1962-ci ildə "Ağcabədi pambıqçısı" qəzetində dərc olunmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmiş (1963-1968), sonra Ağcabədi rayon "Sürət" qəzetində ədəbi işçi, müxbir, məktublar şöbəsinin müdiri (1968-1976), Xankəndi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, sonra dosenti (1976-1994) işləmişdir. Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının direktoru (1994-2000), Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru (2000-2002) olmuşdur.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyinin Problemlər İnstitutunun şöbə müdiri vəzifəsində işləyir. Azərbaycan Yazıçılar Birliyinin Qarabağ filialının sədri seçilmişdir (1991). Bədii tərcümə məşğul olur. "M. Ə. Sabirin poetikası" mövzusunda dissertasiya müdafiə etmişdir (1982).

Onun şeirlərində dövrümüz haqqında düşüncələr, sevgi motivləri və doğma yurdumuzun tərənnümü, millilik, azadlıq və müstəqillik ehtirası, Azərbaycançılıq, türk birliyi, Qarabağın işğaldan qurtuluşu və s. bu kimi social, mənəvi, əxlaqi motivlər əsas yer tutur.

Respublikamızın ən nüfuzlu nəşriyyatlarında Ənvər Əhmədin "Nəslimiz" (şeirlər, 1968); "Anamın izləri" (şeirlər, 1974); "Sevgi yurdu" (şeirlər, 1979); "Sevgi cavan qalır"(şeirlər və poemalar, 1982); "Oğullar və qartallar" (şeirlər, 1985); "Sağlıq olsun" (şeirlər və poemalar, 1987); " Kefenim kandan biçiliyor" (şeirlər, 1995); "Od qanı" (şeirlər, poemalar və dram əsəri , 1997); "Qanlı torpaq" (şeirlər, 1998); "Bu qılınc pas ata bilməz" ( şeirlər və poemalar, 2000); "Dünya əlimdən sürüşür" (şeirlər, poemalar və dram əsəri, 2007); "Salam, ay anası ölmüş oğullar" (şeirlər və poemalar,2008), "Daş qanı"(şeirlər və poemalar, 2011), "Ədəbiyyat yolçusu" (tədqiqat, 2012) , "Həsən Küskün köç eylədi dünyadan", ( tədqiqat, 2013)," Seçilmiş əsərləri" (8 cilddə, 2013-2014-2015) və s. şeirlər, poemalar və dram əsərindən ibarət kitabları, "M.Ə.Sabir poetikasının bəzi cəhətləri" (monaqrafiya, 1978); "M.Ə.Sabirin poetikası" (monoqrafiya, 1996) monoqrafiyaları, onlarca elmi, publisistik, ədəbi-tənqidi məqalələri nəşr və dərc olunmuşdur.

Bu kitabların, demək olar ki, hamısı milli qürurumuzun poetik mənzərəsinin əksinə xidmət edir... Və bu problemə müəllif vətənpərvər bir şair kimi zəruri həssaslıqla yanaşmağı bacarmış, bir ziyalı və intellektual elita nümayəndəsi kimi həmişə adekvakt, effektiv poetik reaksiya göstərə bilmişdir...

Müasir dövrdə, müstəqillik illərində fəaliyyət göstərən yaradıcı fərd, gərək ki, dərin analitik təfəkkür, ünsiyyət qurmaq və əlaqələr yaratmaq bacarığına, problemləri duymaq qabiliyyətinə, operativ fəaliyyət göstərmək, düşməni yaxşı tanımaq və onun psixologiyasının incəliklərinə bələd olmaq, xalq və dövlət mənafelərini əsas tutmaq xarakterinə, fəhminə malik olsun - bax, budur peşəkar ziyalıdan - şairdən, yazıçıdan, alimdən tələb edilən keyfiyyətlər!..

Ənvər Əhmədin fəaliyyət dairəsi və siferası, kəmiyyət və keyfiyyət vəhdəti imkan yaradır ki, o, belə yaradıcı fərdlər sırasında görünsün... Onun əsərlərinin əksəriyyəti müasir dövrümüzün mahiyyətindən qaynaqlanır, müasir gerçəkliyin, Azərbaycan gerçəkliyinin, həqiqətlərinin, taleyüklü, ölkə üçün həsas məsələlərin tarixi-siyasi və ideoloji vacibliyinin yaxın və uzaq hədəflərinin ədəbi-estetik dərkinə, poetik şərhinə hesablanır...

Ənvər Əhmədin poeziyaya gəlişi altmışıncı illərin əvvəllərinə təsadüf edir, dediyimiz kimi ilk şeiri "Dağ və mən" 1962-ci ildə dərc edilibdir. Və o gündən bu günə gözümüz önündə olduqca maraqlı və ədəbiyyatımız üşün vacib bir şair ömrü canlanmaqdadır - 55 ili haqlayan yaradıcılıq yolu keçmiş, 80-nə doğru çəhlim götürən bir ziyalı ömrü... Onun ilk şeirinin adı təsadüfü olsa da, qəribə bir maqik assosiasiya doğurur və gənc şair ilk addımlarından özünü dağla qarşılaşdirir "dağ və mən" deyir... Ulu Səməd Vurğun demiş, "Dağ olmaq istəsən dağa arxalan!" Ənvər Əhməd Misir ocağının bu müqtədir oğlu (bu ocaqda 13 uşaq böyümüş, Əhməd Elbrus, Əbülfət Misiroğlu, Yusif Misiroğlu kimi istedadlı şair, nasir, jurnalist yetişmişdir) orta boylu olsa da, yaradıcılığı etibarən dağ cüssəlidir, gəzdiyi yaylaqlar qədər axar-baxarlıdır... Təqdir ediləsi cəhətlərdən biri də budur ki, Ənvər Əhmədin bütöv yaradıcılığı onun ruhunu, sosial, siyasi ğörüşlərini, həyata münasibətini əks etdirir, yanımcıl, nikbin ruhla xalq kədəri üçün "Qırmızı kəfən" şeirində olduğu təkin "hönkürtüyə" çevrilir:

*Allahın qəzəbi tutubdu məni,*
*Dünyanı Xocalı rəngdə görürəm.*
*Sanki qana dönüb həyat dənizi,*
*Yox-yox, ağlamıram, mən hönkürürəm*

Bu qəbildən, bu məzmunda olan şeirlərdə şairin məhz ana torpağa, Vətənə, xalqa bağlılığı özünü göstərir. Ənvər Əhməd xalqın, vətənin taleyi üçün "mühüm mövzuları" qələmə aldığına görədir ki, əsərllərini mütərəqqi milli ideyalar miqyasında səsləndirə bilmişdir. Əlbəttə, hər bir sənətkarın böyük ürəyi, xalqa böyük məhəbbəti və mühüm mövzular seçməsi yetkin bir sənətkar kimi formalaşmasını təmin edəcək profillərdəndir.

Ənvər Əhmədin 1985-ci ildə yazdığı bir "Tərəkəmə" poeması var və bu əsər Azərbaycan epik poeziyasında yeganə, şəhdli-ballı, köçəri-elatlı, etnoqrafik detallarla zəngin, koloritli, tam orjinal monumental bir poemadır. Bu poemadan gətirdiyimiz bu bir parça Ənvər Əhmədin poeportretinin müəyyən cizgilərini olduğu kimi canlandıra bilır:

*"Tərəkəmə" çalındı,*
*Əriş-əriş çalındım,*
*Arğac-arğac söküldüm,*
*Yumaq-yumaq açıldım.*
*Xurcun-xurcun gözəndim,*
*Naxış-naxış saçıldım.*
*"Tərəkəmə" çalındı,*
*Gəbə-gəbə toxundum.*
*Uçuqlardan tapılan*
*Kərpic-kərpic oxundum.*
*Köç yolu haçalandı,*
*İlmə-ilmə calandı*
*Könlümün Vətən andı.*
*Qılınc-qılınc doğuldum,*
*Qala-qala ucaldım.*
*Həyat-həyat yaşadım,*
*Dünya-dünya qocaldım...*

Bu poemada, ümumiyyətlə, Ənvər Əhmədin yaradıcılığığnda ayrı-ayrı deyimlərin zaman və məkan boyunca hərəkəti, dinamikası, ictimai-sosial problemlərlə, milli-mənəvi dəyərlərlə çarpazlaşması və sair göstərilir və bu şairin, müəllifin zəngin daxili istedadı, mədəniyyəti, bir də detallı həyati təcrübəsi hesabına dəyişir, haqqında söz açılan mətləblərin müxtəlif aspektləri boy göstərir.

Ədəbi mühitdə onun yaradıcılığı, eləcə də, "Tərəkəmə" poeması həm qələm dostları, həmkarları tərəfindən, həm də oxucuları tərəfindən həmişə rəğbətlə qarşılanmış, xoş təəssurat oyatmışdır.

***Xalq yazıçısı Anar Rzayev:*** "Ənvər Əhməd el qeyrətli ziyalıdır. Ənvər ictimai-siyasi hadisələrə həmişə emosionaltənqidi münasibətdə olur. Ruhunun ?ictimai fəallığı?şeirlərinə də hopur. El şairlərinə xas olan ictimai siyasi motivlər onun poetik lüğətini müəyyənləşdirir. Ənvər Əhməd şəhər infrastrukturuna, çoxmərtəbəli evin qapalı məkanına alışsa da, elat - tərəkəmə koloritini, kənd insanının saflığını qətiyyən itirməyib. Türk keçmişinə sevgi etnik mədəniyyətimizlə qürur hissi onun yazı üslubunu və mövzusunu şərtləndirir. Ənvər Əhmədin emosional dünyası poetik yaradıcılığında parlaq şəkildə əksini tapır. Cəmiyyətdəki haqsızlığa, ədalətsizliyə dözümsüzlüyü, Vətən sevgisi şeirlərinin poetikasını, fəlsəfi fakturasını müəyyənləşdirir. Onun sevgi şeirlərində də, mən deyərdim ki, bir kişi səmimiyyəti var. Əksər poeziya nümunələrində kişi dəyərlərindən söz açır. Praqmatikliyindən, hadisələri real qiymətləndirmək baxımından fərqlənir… O həyatda, davranışında şairdir və dəyərli poetic məharətə sahibdir. Ənvər Əhməd mənim düşüncəmdə bütöv Azərbaycana yaraşan bir ziyalıdır.

Onun yazılarında təfəkkür və dil arasında məsafə qısa və lakonikdir.

Yəni onun istəyində bədii mətn yorucu olmamalı, fikir və ifadə qısa, yığcam olmalıdır. "

**Xalq şairi, filologiya elmlər doktoru Xəlil Rza Ulutürkün fikri ümumən bu münasibətin bariz nümunəsidir:** "Ənvər Əhmədin poeziyasında heç bir zahiri effekt, gurultu, iddia, özünütəsdiq aludəliyi yoxdur, yalnız dərin səmimiyyətin, həyata, insanlara vurğunluğun, bəşər qatillərinə, yırtıcıya, qəsbkara amansız və alovlu nifrətin sağlam cövhəri var. Bu poeziya bizi ümumən sənətin, şairin, şairliyin mahiyyəti haqqında düşünməyə, bunu yenidən öyrənməyə, min dəfə verilmiş suallara yenidən qayıtmağa vadar edir".

**Özünün dediyindən:** "Ürəyim kövrələndə kəhər atımı minib Haramıda, Şah təpəsində, Küdrüdə, Çafalda, Nərgiztəpədə, Erki qarışanda doyunca gəzirəm. Yorulanda çoban qardaşım Şəmilin evinə düşüb köhnə motal pendiri ilə acıtmalı əppəkdən iştahla yeyirəm, samovar çayı içirəm. Uzun müddət nəsə özümdə bir rahatlıq, gümrahlıq hiss edirəm. Bir sözlə, təpədən dırnağadək zoğ tərəkəməyəm, hətta tez-tez bəzi ziyalı dostlarım mənə zarafatla "tərəkəmə balası" deyə müraciət edirlər". Ənvər Əhməd bir tərəkəmə balası kimi daxilən azaddır, sərbəstdir, yovşan ətrli şeirlər müəllifidir, poeziya çəhlimlərdə səllimidir...

**Professor, filologiya elmlər doktoru, tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli:** "Azərbaycan ədəbiyyatında tərəkəmə həyatına, onların adət-ənənələri, məişətinə dair yazılan əsərlərin sayı o qədər də çox deyil. Azərbaycan xalqının etnogenezində fəal iştirak etmiş qədim türkdilli tayfalar olan tərəkəmələr-oğuz türkləri əsasən Azərbaycanın Kür-Araz ovalığı, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində icma halında yaşamışlar və indi də bu proses davam edir. Onların əsas məşğuliyyət sahəsi maldarlıq və əkinçilikdir. "Tərəkəmə" xalq rəqsini tərəkəmələrin yaratdığına qətiyyən şübhə eləmirik. Amma mən "tərəkəmə" deyəndə bütün bu etnoqrafik detallardan daha çox çölçülüyə, azad quşların, ağacların, çayların, göllərin dünyasına qovuşan, doğulduğu gündən ölənəcən daxilən azad olan insanları düşünürəm. Çomaq götürüb, çarıq geyib, dağda-aranda qoyun-quzu otaran, sapand atan, at çapan, süd sağan, suluq tutan, bulama bişirən tərəkəmələr-köçəri həyat tərzi keçirən bu azad insanların içindən Xudu Məmmədov kimi dünya şöhrətli bir alim yetişdi. Elə "Tərəkəmə" poemasının qələmə alınması da onun təkidilə olub: "Ənvər, sən xalis tərəkəməsən. Çobanlıq həyatını yaxşı bilirsən. Onların həyatından, xalqımızın ulu adət və ənənələrindən, ümumən köçərilik həyatından bir etnoqrafik poema yazsan, pis olmaz".

"Tərəkəmə" poeması eyni oyun havasının ritmi ilə başlanır (mənə belə gəlir). Sözlərin təkrarı və səslərin alliterasiyası üzərində qurulan "giriş" hissəsində biz tərəkəmə həyatının romantikasını seyr edirik."

"Tərəkəmə" poeması sırf tarixi-etnoqrafik poemadır, böyük bir elatın tarixi və müasir həyatıdır... Onun bir sıra qəhrəmanlarının da müəllifin müasiri olmasını təsadüfi hesab etmək mümkün deyildir . Bunlardan , çoban Xanlar, Həsən, Kal Bayram, Xanım, Şərəf, Sarı Kərim, Zaman oğlu Mustafa, Hacı İbiş, çoban Paşa, Mir Ələkbər, Hör-nör Şəmil, Bığ Əkbər, Dönməz Əliş, Nər Vəli, Xanım, nazlı Şəhla, Sona xala, Gülüsüm bibi, Əhməd baba, Şərəf bacı, Uruz əmi, Musa kişi, çoban Boran, Murgüz Alı, Ter Əhməd, Dızıq Qara və başqaları bu sıradandır. Demək olar ki, hər biri epizodik səciyyə daşıyan bu adamlar poemaya təbii bir kolorit gətirir, adların, ayamaların özü çox mətləbdən və elat mədəniyyətinin incəliyindən xəbər verir. Bir sözlə, Ənvər Əhməd poemada tərəkəmə həyatının romantik dünyasını özünəməxsus tərzdə, parlaq, tipik çalarları ilə, "Söz közündə, odunda əriyə-əriyə" təqdim edir.

*Dağ suyu tək duru idi qanımız,*
*Buz salı tək möhkəm idi canımız,*
*Nağıl idi ötüşən hər anımız,*
*Gün doğmamış yağlı yaxmac yeyərdik,*
*Nənəmizə "sağ ol, sağ ol" deyərdik.*

*Qulun salan at çullanar, bağlanar,*
*Yalmanlanan atın şişi dağlanar,*
*Qotur dəvə gühənindən yağlanar,*
*Cidov öküz soncuqlayar, getməzdi,*
*Alıq aşar, mənzil başa yetməzdi.*

Misal gətirdiyimiz bu iki bəndin tekstoloji tərkibində istifadə edilən sözlər, ifadələr, poetik sintaksis tərəkəmə elatının məişətini doğru-düzgün, bütün koloriti ilə əks etdirir ki, bu cəhəti bütün poema boyu müşahidə etmək mümkündür... Bunlar əslində milli-etnoqrafik dəyəri olan urvatlı sözlərdir... Bu poemada mövzuya, bədii sözə, hissə, fikrə zərgər dəqiqliyi ilə məhəbbət və hörmət var, sözü hörmətə mindirmək var... Burada şairlik təcrübəsi və yüksək sənətkarlıq texnikası da var... Mətndə qürur qarışıq bir nisgil var ki, elatın bir çox ənənələri öləziməkdədir, adı çəkilən yurd, yaylaq yerləri indi düşmən işğalındadır və o dağlar, qayalar, bulaqlar da, bizim özümüz də bir-birimizin nisgilini çəkirik... "Dağ günləri elin ən xoş günüydü, Hər səs-səda çobanların ünüydü..." misraları bu günün faciəsini alt qatda nümaiş etdirir. İndi bizim, Qarabağ elatlarının "xoş gününü", "səs-sədasını, ününü", dağlarını - yaylaqlarını əlindən alıblar... Məkan olmayanda, sənin təsvir etdiyin həyat da olmur...

Əlbəttə, "Tərəkəmə" poeması, tarixi-etnoqrafik gerçəklikləri əks etdirən tərəkəmələrin tarixi həyat tərzi və məişətini maraqlı, həyati detallarla təqdim edən poetik təəssüratlar silsiləsi kimi olduqca maraqlıdır. Poetik ricətlər, emosional təsvirlər, lirik təhkiyyənin səmimiyyəti və orjinallığı, şairin görüb müşahidə etdiyi hadisələr, tərəkəmə həyatının az qala bütün etnoqrafik detalları ilə təsviri o qədər real, təbii və inandırıcıdır ki, burada tarixi-etnoqrafik xronikadan daha artıq, ruhu oxşayan məlumat əldə edir,



əsər boyu Qarabağ tərəkəmələrinin yaşadığı yurd yerlərini, dolaşdığı kəndləri, obaları bircə-bircə sanki səyahət edirsən, kəhərə süvar olub Haramıdan, Şah təpəsindən, Küdrüdən, Çataldan, Nərgiztəpədən, Ergiqarışandan keçirsən, Qaravəlli, Kələbədin, Sarvanlar, Kəbirli, Eyvazlı, Sarıcalı, Arazbar, Əlnəzərli, Xəsilli, Təhlə, Ovşar, Muğanlı, Qaradolaq, Aşıqlı və digər kənd-oba adları poetik misralara həkk olaraq yaddaşda qalır...

Ənvər Əhmədin "Od götürdük Şəhriyarın sözündən" deyərək ustad Məmmədhüseyn Şəhriyarın "Heydərbaba" poemasının ritmik havasından bəhrələnməsi də, yeni məkan və siferada daha da doğmalaşır, situasiyaların təbiiliyini və şirnliyini qorumağa xidmət edir... Ənvə Əhmədin digər əsərlərində olduğu kimi bu əsər də təzə-təravətli poetik deyimlərə zəngin olan poemadır.

Oxucu müəllifə qoşulub, özü demiş - Çalbayırdan, Murad təpəsindən, Sarıyerdən, Ceyran bulağından, Qırxqızdan, Dəli Dağdan, Çilgəz yaylağından, Qaraarxdan, Qaraxaçdan, Yüzbulaqdan, Əyriqayadan, İşıqlıdan, Uzun yaldan, Ağ qayadan, Mıxtökəndən, Səbətkeçməzdən keçir, Qarabağın tərəkəmə obalarını gəzir, göyəbaxana, vanaya, küzə baxır, göy çəmənə sərələnib gülə-çiçəyə batır, kəklikotu dəmləyib içir, sürüyə sərdən vurur, qalayı gümüş təki parıldayan qavlamanı götürüb sağmal qoyunları ovşarlayır, sərnic-sərnic süd sağır, dələmə tutur, bulama bulayır, suluq bişirir, ağuz sağıb kətəməz yeyir, atlama içir, zoğal çomağı götürüb bəlgə tutaraq zarafat-zarafat çobanlarla "çomaq davasına" çıxır, qıyxırıq qoparır, 24 yan keçədən tikilən muxurularda xalı-gəbə, nişan xurcunu, yun corab, örkən, çatı toxuyan gözəl-göyçək qızların tırnqıyla çaldıqları ilmələrə, vurduqları allı-güllü naxışlara, oxuduqları qədim el mahnılarına heyran kəsilir. "Tərəkəmə" poeması belə başlayır:

*"Tərəkəmə çalındı, qanım coşdu, qaynadı,*
*Qollarını qaldırıb elim,obam oynadı.*
*"Tərəkəmə" çalındı, igidlər bəlgələndi,*
*Çomaqlar şaqqıldadı, torpağa od ələndi.*
*Qırat aşdı gədikdən, od yağırdı nalından,*
*Bığıburma bir oğul yapışmışdı yalından.*
*..."Tərəkəmə" çalındı... Babək andım içildi,*
*Həsrətimin nöqtəsi gözlərimdə kişildi.*
*Dırnaq-dırnaq oyuldum, külüng-külüng qazıldım,*
*Qayaların üstünə göz yaşımla yazıldım.*
*..."Tərəkəmə" çalındı, köç yolu haçalandı,*
*İlmə-ilmə calandı könlümün Vətən andı.*
*Qılınc-qılınc doğuldum, qala-qala ucaldım,*
*Dünya-dünya qocaldım.*

Ənvər Əhmədin "Tərəkəmə" poemasının sonluğu fəlsəfi-estetik mənada göstərir ki, xalqın, millətin mahiyyəti saflıqla yoğrulduğundan həmin saflıq və mərdlik əsrlər, eralar ötsə də, getdikcə artır, güclənir, elə bil, illər, əsrlər, eralar geri qayıdır, hər şey yeni keyfiyyətdə, yeni mahiyyətdə spiralvari şəkildə təkrar olunur və insan taleyinin (tərəkəmə elatının) tarixçəsində yenidən canlanır; müəllif, məkan, zaman, qəhrəman, ədəbi əsər anlayışının özü də təzələnir:

*Ürək həmin ürək,*
*Duyğu həmin duyğu,*
*Yolçu həmin yolçu!*
*... Minib köhlən atımı,*
*Çapdım, çapdım, ha çapdım*
*Harda dayandı,*
*Orda yurdumu tapdım.*
*Tapdım, ulu babamın*
*Ulusu düşdü yada.*
*Çomağım sancılmamış*
*Yer yoxumuş dünyada.*

Nə gözəl, nə qədər ülvi duyğulardır bunlar. Bunlar "Dədə Qorqud"dan gələn = "oxu at, ox sancılan yerdə, xeyməmi qur" fəlsəfəsindən, dinimizdən gələn "Ağ dəvə xıx edib - diz qatdayıb yatan yerdə peyğımbərə ev tikin!" inancından süzülüb gələn bulaqdır…

Təsvir-təqim olunan hadisələr, etnoqrafik detallar səni ictimai sferaya - mətndən kənara çəkir, içində mətndə olmayan, vaxtilə gördüyün, yaxud görəcəyin hadisələr canlanır, ən müxtəlif düşüncələri, duyğuları oyadır, müqayisə edirsən, yenidən poetik mətnə qayıdır, yenidən onun dərinliyinə dalırsan... Oxucu fəhmindən asılı olaraq (fəhmin intensivliyi) poetik mətni anlamağın yeni strategiyası ortaya gəlir.

Bunlar bir daha tarixi gerçəkliyi canlanıraraq onu göstərir ki, at üstündə doğulan, at üstündə ölən türkün əkmək qazandığı çomağı, həm onun silahı olub, həm onun bayrağı… "Çomağım sancılmamış, Yer yoxumuş dünyada." - deyiminin, misralarının poetik-tarixi məna yükü də, bundan ibarətdir… "Türk qanlı köynək kimi geyir əyninə yurdu"- misrasının siqləti bayraq rənginə dönmürmü?! Və yaxud, "Dönüb ildırıma, çaxıb, hey çaxıb, Qılınc tariximiz heç vaxt pas atmaz!" - sözünə sonsuz inam və heyranlıq buradan yaranmırmı?!

Beləliklə, əsəri xronoloji qaydada deyil, olduğun məkan və zaman ölçüləri daxilində, keçmiş zamanın donmuş anında anlamaq tələb edilir...

"Qılınc", "Misri qılınc" mifik-folkloristik obrazları Ənvərin poetik strukturunda müxtəlif məna və mahiyyətdə vaxtaşırı müraciət edilən obrazlardandır… Bəlkə də, bu genetik yaddaşdan - Ənvərin atası müdrik Misir kişinin, Misir Zaloğlunun adından assosiativ güc alır... Misir uşağının - şair Ənvərin, yazıçı Əbülfətin, jurnalist Yusifin xislətində gecələyən tərəkəmə saflıqdan güc alır... Və Ənvər Əhmədin Əfzələddin Xaqani babası demiş, O, "Misri qılıncı Misri qələmə, Misri qələmi Misri qılınca sözün ovxarnda əvəzləşdirə bilir... Cünki əsrlər boyu türk məişət və təfəkküründə Misri qılınc və Misri qələm vəhdəti həmişə olubdur... Ulu Səməd Vurğun elə-belə deməmişdi: "Müsəlləh əsgərəm, mən də bu gündən!" Bu onun həmkarlarına, qələmdaşlarına mesajı idi - Şairlər, Yazıçılar, başqa sözlə, yaradıcı adamlar həmişə vətəninin, xalqının "MÜSƏLLƏH ƏSGƏRİ"dir!!..

"Hardan başlayır vətən?" sual dilemmasının cavabdehləridirlər, əllərində Misri qələm sərhədçidirlər. Ona görə də,onun lirik qəhrəmnının Vətənin bütövlüyünə gedən yolu sərhəd dirəklərinə çatanda yolu kəsilir, yarımçıq qalır, yol da canlı kimi ölür: - "Sərhəd dirəyinə çırpıb başını, Çığıra-çığıra ölərlər yollar."

Ənvər Əhməd üçün Vətən məhfumu Ana məhfumu ilə üzvi şəkildə birləşir, elə Vətən "Anamın izləri" şeirində olduğu təkin Ananın ayaq izlərindən başlayır:

*Minib qarğı atları, yollar boyu çapardıq,*
*Palçıq üstə anamın izlərini tapardıq.*
*Əyilib o izdəki göz yaşı tək saf sudan,*
*İçərdik biz doyuncan!*

Şair bu sudan doyunca içir ki, yanmış ürəyi sərinləsin. Doyunca içir ki, hamı bilsin, hamı duysun, hamı dinsin, hamı desin ki, Vətən bu ayaq izlərindən başlayır… Əslində, ananın bu ayaq izindəki göz yaşı təkin saf su - irilik suyu, mənəviyyat, əxlaq çeşməsidir… Və bu Ananın ayaq izlıəri müqəddəsdir, toxunulmazdır:

*Götürün, yolları üfüqdən asın,*
*Bir ana izi də tapdalanmasın!*

Nə gözəl arzu! Nə gözəl istək! Yenə də, qeyri-adi orjinal poetik obraz, Ana məhəbbəti üfüqdən boylanan dan yeri rəngində bayrağa dönür…

Bax, ana heykəlini belə qoyarlar, o heykəli ürək kimi döyünən əlləri öz başı üstünə bax, belə qaldırarlar! Bayraq kimi... Dünyaya 13 övlad gətirmiş Ananın müqəddəs obrazı ölməzliyə şevrilir… Ənvərin əsərində natural detallar var, amma naturalizm - sırf natural təsvir, naturalistcəsinə münasibət yoxdur..Ənvərdə qəribə, özünəməxsus ANA = Vətən aşiqliyi var, lap özü də Füzuliyanə bir aşiqlik... Bədii-estetik səviyyəyə yüksəlmiş, esteik kateqoriyalaşmış bir aşiqlik... Bu aşiqlik sufiyanə aşiqlik deyil, ifrat deyil, adi, həyati, insani, amma çox energetik bir aşiqlik... Ənvər Əhmədin ANA - VƏTƏN aşiqliyi real zəmin və məzmunda Füzuli babasının aşiqliyinəqiyasdır: " Məndə Məcnundan füzun aşiqlik istedadı var, Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var. ...Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm, Mən aşiqəm, həmişə sözüm aşiqanədir."

Ənvər Əhmədin bu qəbildən şeirlərindən ruh işığı gəlir. Yanan ürəyin, əlin, sözün, üzdən axan yaşın işığı olurmuş… "Ana!" şeirində olduğu kimi:

*Bu zülmü mənəm ki çəkirəm, ana!*
*Yoxluğun əriyib gözümdən axdı,*
*Ölümün öldürdü mən qara baxtı.*
*Hönkürüb, hönkürüb bu gecə vaxtı*
*Qəbrini bağrıma bükürəm, ana!*

Bu təsadüf deyilmiş. Ənvər Əhməd görür ki,

*...Axşam qapımızdan başlanan bir iz,*
*Səhər görürsən ki, günəşə çatır!*

Və yaxud qəlbən inanır ki,

*... Torpağın arxası dağlar, dərələr,*
*İnsanın arxası eldir- obadır…*

Keçmişdən üzü bəri nənə-babalarımız qorxulu yuxunu axar suya danışıblar və deyiblər: "Dərdini yaz kağıza, at suya, padşaha gedib çatacaq". Ənvər Əhməd də "Xudafərinin iş ərizəsi" şeirində həmin köhnə, sınanılmış yolla gedir. Lakin bu dəfə ərizəni adam deyil, bir körpü yazır - Xudafərin körpüsü. Tarix səhnəsində bu qədim körpü öz yerinin nə olduğunu bilmək istəyir. Şair ona yol göstərir:

*At ərizəni Araza,*
*Araz bilər ünvanı!*

Yəni sənin dadına yetsə, suya atdığın ərizə yetəcək. Ərizəni hansı ünvana lazımdırsa oraya çatdıracaq:

*Dekabrda yazmışdı*
*Xudafərin yəqin ki, bu ərizəni?!*
*O ərizənin suya atılmasından neçə dekabr*
*keçib görəsən?..*
*Sular o ərizəni harda atıb-oynadır indi?!*
*Hər halda hələ ümid var.*
*Çünki ərizə suya atılıb!*
*Çünki dekabrda hər hansı bir kağızın*
*ölüm-itim xəbəri çıxmayıb hələ!*

Özü də söhbət o sulardan gedir ki, qanlı, bulanıq olması öz yerində. Qorxusu bu deyil! Qorxusu odur ki, bu cür sularda şair demişkən, "Zəmanənin əliylə axtalananda məslək", "Bəlkə balıq iştahla yeyir öz balasını". Oljas Süleymanovun şeirlərindən birinin epiqrafında belə bir məqam var: "Afrikada ana qəbirlərinin başdaşı üstündə açıla qalmış əl şəkli həkk olunub". Sən demə, bunun mənası bu imiş:

*Diləyimiz ömü-ömür qarıdı,*
*Şair demiş: Araz su yox, barıdı.*
*Ağlar gözün tutulmaqdır peşəsi,*
*Sərhəd üstə sındı könlüm şişəsi…*

**Ənvər Əhməd bütün ziyalı həyatını Qarabağ ağrısı ilə keçirən, Qarabağ dərdini canının və qələminin giziltisində daşıyan vətəndaş şairdir və "Fani dünya bizi yaman sıxıbdır" - deyərək sızıldayır. Onun bu problemə baxışı və ədəbi konsepsiyası aydındır, şəffafdır: "Dağlıq Qarabağ problemini "münaqişə" deyil, "ədalətsiz müharibə" adlandırmağın doğru olduğunu vurğulayan Ənvər Əhməd işğal edilən ərazilərin geri qaytarılmasını müharibədə görür: "Bu dəqiqə ermənilər "Cıdır düzündə" at oynadırlar. Biz isə Şuşanın işğalını Bakıda qeyd edirik. Şuşaya sözlə qayıdırıq, əməllə yox!". "Şuşalı bülbül" şeirində bütöv bir xalqın Qarabağ - Şuşa dərdi "Xarı bülbül - Şuşalı bülbül" obrazında ağıya dönür, Şuşanın poetik dərd hekayətinə çevrilir, Pablo Pikassonun "Sülh göyərçini" tablosu təkin teokosmik mənada simvollaşır, Şüşanın azadlığına çağırış simvoluna, rəmzinə dönür.**